DOI: 10.36719/2663-4619/60/122-125

**Kifayət Əliqamət qızı Dolxanova**
kifayat.dolxanova@yandex.ru
Bakı Slavyan Universiteti

# SOSİAL ŞƏBƏKƏLƏRİN BU GÜNÜ VƏ PERSPEKTİVLƏRİ

***Açar sözlər:*** *innovativ texnologiya, sosial informasiya şəbəkəsi, İKT, social media, "Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzi, VPN texnologiyası, AMEA Yüksək Texnologiyalar Parkı Məhdud Məsuliyyətli Cəmiyyəti*

## Social networks today and their prospects

**Summary**

The article describes scientific and pedagogical research, which shows the idea under discussion is a very effective idea. Currently existing control systems have been analyzed and opportunities for the development of information technology in modern computing technologies, the systematic use of software tools, as well as the possibility of the system functioning at a certain level have been identified.

Our current perspective is with the rapid growth of human development in social networks, there is a need for analysis, such as networks of influence, taking into account the interaction of network members, the dynamics of ideas. Over the past decade, the development of information and telecommunication technologies, the importance of new types of resources, as well as online social networks has increased significantly as a means of disseminating ideas that affect the behavior of network users.

***Key words:*** *innovative technology, social information network, ICT, social media, "Multimedia" Information Systems Technology Center, VPN technology, High Technology Park of ANAS Limited Liability Company*

## Giriş

**Məqalənin elmi yeniliyi** ondan ibarətdir ki, şəbəkə anlayışı elmi cəhətdən təhlil olunmuş və idarəetmənin müasir inkişaf meyllərini aydınlaşdıran optimal şəkildə müəyyən proqnozların verilməsi prosesi reallaşdırılmışdır. Dünya İT bazarında müasir hesab olunan sosial şəbəkə ilə bağlı olan prinsiplər və perspektivlərə yanaşmalar müasir müstəvidə və dəyişən şəraitdə tədqiq olunmasından ibarətdir. Bununla bağlı olaraq bir çox elmi yeniliklər əldə edilmişdir:

- ❖ Mövcud şəkildə qoyulmuş problem elmi cəhətdən təhlil olunur və buna əsaslanaraq şəbəkə idarəetməsinin müasir inkişaf meyllərini göstərən optimal proqnozlar və perspektivlər işlənilib.
- ❖ Sosial şəbəkədə informasıyanın idarə olunmasında qərarların formalaşdırılması nəzərdən keçirilmiş və onun funksiyaları təhlil edilmişdir.
- ❖ Sosial şəbəkədə olan bir çox dəyişikliklər, şəbəkədənin istifadə istiqamətləri aydın şəkildə araşdırılmışdır.
- ❖ Şəbəkənin müasir və mütərəqqi sahəsi istiqamətində yanaşma məsələlərinə xüsusi diqqət yetirilmiş, informasiya və telekommunikasiya texnologiyaları (İKT) bazarının tərkib elementlərinin xüsusiyyətləri müxtəlif aspektlərdən göstərilmişdir.

**Mövzunun aktuallığı**. Hazırda sosial şəbəkələr aktual məsələlər sırasındadır. Hər kəs sosial şəbəkədən yararlanır. Şəbəkədən istifadə müsbət və ya mənfi yönümlü ola bilər. Şəbəkənin inkişafı informasiya bolluğuna, ünsiyyət prosesinin daha optimal və rahat olmasına şərait yaradır. Sosial şəbəkələrin simulyasiyasında, şəbəkənin üzvlərinin qarşılıqlı təsiri, fikirlərinin dinamikası nəzərə alınmaqla, onların təhlilinə ehtiyac vardır. İnformasiya və telekommunikasiya texnologiyalarının inkişafı ilə yeni növ resursların-online sosial şəbəkələrin əhəmiyyəti son il ərzində şəbəkə istifadəçilərinə təsir edən fikirlərin yayılması sonsuz dərəcədə artmışdır. Hazırki şəraitdə qoyulmuş bu məsələlərin tam həll edilməsi, cəmiyyətdə düzgün şəkildə inkişaf proqnozunun və perspekttivliyinin verilməsi sistem nəzəriyyəsindən müasir informasiya texnologiyalarından istifadə olunmadan mümkün deyildir. Son zamanlar sosial-iqtisadi proqnozlar keçmişdəki şəbəkə nəticələrinin gələcəyə ektrapolyasiyası yolu ilə ötürülür. Lakin tarixi inkişaf prosesində yeni dəyişikliklər baş verdikdə ciddi nəticələr almaq mümkün olmurdu. İstənilən dövlətin kiçik və orta innovasiya sahibkarlığının inkişaf etdirilməsi, müasir elektron avadanlığın və bir çox proqram təminatlarının ixrac edilməsi və idxalı üzrə regional şəkildə bazanın təşkil edilməsi ölkələrin səmərəli tranzit informasiya mərkəzinə çevrilərək formalaşmış informasiya cəmiyyətinin yaranmasına şərait yaradıril. İnkişaf etmiş va inkişaf etməkdə olan ölkələrdə şəbəkə texnologiyalarının bir çox üstünlüklərindən istifadə olunur

ki, bu da şəbəkədən istifadə səviyyəsi dünya ölkələrinin intellektual potensialının inkişafı və iqtisadiyyatın bir çox sahələrinin inkişafının vacib göstəricilərindən biridir.

**Məqalənin praktik əhəmiyyəri və tətbiqi.** Məqalənin mövzusu çox aktual bir məsələnin tədqiqinə həsr olunub. Müasir dövrdə sosial şəbəkənin təşkili və istifadəsi çoxlu sayda problemlərin çözülməsinə, idarəçiliyin inkişafı və burada insan amilinin rolunun qiymətləndirilməsi, onun potensial gücünün artırılması, ölkələrarası münasibətlərin genişləndirilməsi və iqtisadiyyatın zəruri sahələrində inkişaf tempinin yüksəldilməsində öz müsbət təsirini göstərməkdən ibarətdir

## Nəticə

Aparılmış elmi-pedaqoji araşdırmaların nəticəsində müəyyən edildi ki, müzakirəyə çıxarılan ideya olduqca səmərəli ideyadır və müasir dövrdə sosial şəbəkələrdə informasiyanın idarəolunması prosesi müəyyən şəkildə təhlil edilmiş, informasiya texnologiyası əsasında göstərilən verilənlər bazası və nəticə olaraq idarəetmə prosesləri zamanı kompleks məsələlərin həlli imkanları, həll olunmuş məsələlərin tərkib hissəsinin müəyyən olunmuş qərarının qəbul edilməsi üçün vacib kriteriyalara əsaslandırılmışdır.

Dünya qloballaşır və sosiallaşır. İnsanların həyatında ümumi proseslər hakim kəsilir, çoxluğun ümumi virtual ailəmə maraqı və tələbatı önə çıxır. Elmi-texniki qloballaşmanın axarında elmi yeniliklər ölkələrin və dövlətlərin sərhədlərini maneəsiz aşıb keçir. Baş verən yeniliklərin virtual böyük auditoriyalar yaratması isə dünyanın informasiya ilə idarə olunması effektini daha da gücləndirir. Elmi texniki tərəqqinin insanlara verdiyi qlobal və sosial informasiya şəbəkəsi həqiqətə yönləndiriləndə misilsiz həmrəylik və harmoniya yarada bilir. Yalan və bəd niyyətin sosial informasiya şəbəkəsində yayılması isə çaşqınlıq, qıcıq, aqressiya törədir. İctimai rəyi yanlış istiqamətə yönəltdikdə milli və dövlətçilik maraqlarına zərbə vurulur. İnformasiya texnologiyalarının virtual vasitələrlə müasirləşməsi kütləvi informasiya vasitələrinin yayım imkanlarını sonsuz dərəcədə artırdığı zaman sosial paylaşmanın hüdudlarını zaman və məkan baxımından azaltmış, nəhəng və möcüzəli məkana girişi istifadəçilər üçün əlçatan etmişdir.(1)

Amerikalı psixoloqlar sosial şəbəkələrin insan həyatına təsirini araşdırmalar nəticəsində insanlarda Facebook sosial şəbəkəsindən asılılığın formalaşması səbəbi müəyyən olub. ABŞ-da keçirilmiş illik NCA konfransında müxtəlif ölkələrdən olan alimlər sosial şəbəkələrin insan həyatına təsirini müzakirə ediblər, məlum olub ki, müəyyən fərdi xüsusiyyətlərə malik insanlar Facebook sosial şəbəkəsindən asılılığa daha meyillidirlər. Bu kateqoriyaya özləri haqda yüksək fikirdə olmayan insanlar daxildir. Alimlərin fikrinə görə, sosial şəbəkədən asılılıq insanlara alkoqol və ya narkotik kimi mənfi təsir göstərmir. Bu tip asılılıqdan əziyyət çəkən insanların daha yumşaq xarakterə və pis yaddaşa malik olduqlarını müəyyən ediblər. (2)

"Transition-Online" Beynəlxalq Humanitar Təşkilatın Azərbaycan bölməsi Media Mərkəzində "Sosial şəbəkələrin xeyri və ziyanı" mövzusunda dəyirmi masa keçirib. Təşkilatın təmsilçisi Emin Hüseynzadə Azərbaycanda 369 mindən çox "facebook" istifadəçisi olduğunu, bunun 35%-ni qadınların təşkil etdiyini deyib.

Bu sosial şəbəkələrdən ən müxtəlif məqsədlər üçün istifadə etmək olar, qeybətdən, intellektual paylaşmaya qədər. Ekspert kimi Rəşad Əliyev qeyd edir ki, sosial şəbəkələrin sosiallığı və ictimailiyi gücləndirdiyini deyərək, bu şəbəkələri daha çox insanla təmas qurmaq və informasiya paylaşmaq vasitəsi kimi dəyərləndirib. Bu mənada "Facebook" daha çox informasiya bazası və düşüncələri bölüşmə məkanıdır. Bu sosial şəbəkələrin xeyri həddən böyükdür və ona görə də bu şəbəkələrdən istifadə daim artmalıdır. (3)

Digər ekspert Vüqar Babayev isə qeyd etmişdir ki, sosial şəbəkədən həddən artıq istifadənin psixi problemlərə səbəb ola bilər, virtual aləmdə yalnız beyin işlədiyi üçün psixi problemlər yarana bilər. O, sosial şəbəkədə təhqirlərə yol verilməsini onun mənfi cəhəti kimi dəyərləndirib və sosial mediada hüququ tənzimlənmənin olmamasını mənfi hal adlandırıb. Amma, buna baxmayaraq, bu sosial şəbəkələrin cəmiyyət üçün çox xeyirli olduğunu təsdiqləyib.(4)

Azərbaycan reallığında isə müşahidələr göstərir ki, son vaxtlar İnternetin, sosial medianın auditoriyası genişlənir. Bu da, daha çox İnternet TV-lər və sosial media üzərindən canlı yayımların artması ilə bağlıdır. Monitorinqlərimiz və müşahidələrimiz göstərir ki hazırda "YouTube" və "Facebook" üzərindən yayımlanan ən azı 25-30 informasiya resurmuz, TV kanallar var ki auditoriyası yetərincədir. Çünki maraqlı və aktual mövzular, alternativ fikirlər, diskussiyalar gündəmə gətirilir. Yerli TV-lərdə bu tip verilişlər olmadığından İnternet TV, sosial media üzərindən canlı yayımların populyarlığı tam sürətlə artır. Onlar dərhal ciddi bir auditoriya toplayırlar, yerli TV-lərə marağın olmaması alternativ TV-lərin populyarlığını daha da artırır. Azərbaycanda təxminən 3 milyon insan sosial medianın üzərində "oturub". Bura xaricdə yaşayan Azərbaycanlı auditoriya da daxildir. Səhər yerindən duran kimi bu 3 milyon istifadəçi, bunun içərisində dövlət məmuru da var, sadə vətəndaş da. Artıq TV-nin düyməsini basmaqla deyil, telefonu əlinə

almaqla informasiya əldə edir. Onlar burada məhz alternativ fikir, müstəqil fikir, canlı yayımlar gözləyirlər. Burada ictimai informasiya daşıyan şəxslərin əlçatan olması, sosial mediada rəsmi açıqlamalar verməsi, anında münasibət bildirməsi, həm cəmiyyət və vətəndaş üçün faydalıdır. Bu da manipulyasiyaların, dezinformasiyanın qarşısını alır, etibarlı informasiya mühiti vətəndaşların, qurumların daha düzgün qərarlar qəbul etməsinə imkan verir.

Hal-hazırda "Whatsapp"-da, "Youtube"-da dezinformasiyaların qarşısının alınmasında aidiyyatlı dövlət qurumları müəyyən rol oynayır. Bu işdə internet istifadəçiləri də mühim rol oynayırlar. Kimsə dezinformasiya yaymaq istəyirsə, onun qarşısı dərhal internet istifadəçiləri tərəfindən alınır. Aidiyyatı dövlət qurumları, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Elektron Təhlükəsizlik Xidməti və dövlət qurumlarının informasiya sistemlərinin təhlükəsizliyinə baxan Kompyuter İnsidentlərinə qarşı Mübarizə Mərkəzinin (CERT) aktivliyi də xeyli artıb. Bu da dezinformasiyaların və feyk xəbərlərin yayılmasının qarşısını alan əsas amillərdən biri rəsmi xəbərlərin intensiv və əlçatan olmasıdır.

Son zamanlar Twitter və digər sosial şəbəkələr yalan məlumatların yayımlanması və xarici təbliğata şərait yaratması səbəbiylə qərb ölkələri tərəfindən günahlandırılır. Belə ki, 2016-cı ildə ABŞ-da keçirilən prezident seçkilərində yalan xəbərlərin ortaya çıxması sosial şəbəkələr üçün ciddi problem yaradıb.

İntelektual kəsim, ictimai-siyasi şəxslər, rəsmi qurumlar daha çox tvitterdədir.

Bu ilin sentyabrın 27-dən sonra, yəni Vətən müharibəsi başlayandan sonra "Twitter" Azərbaycanın haqq işinin beynəlxalq aləmə çatdırılmasında daha mühim rol oynadı. Prezidentin tvitləri ilə əlaqədar olaraq Azərbaycanda "Twitter" istifadəçiləri xeyli artdı. 20 gün ərzində Prezident İlham Əliyevin tvitter səhifəsinin izləyiciləri təxminən 321 min nəfər artıb. Son statistikaya əsasən izləyicilərin sayı 400 min artıb. Halbuki müharibədən öncə Azərbaycanda tvitter istifafəçiləri 300 min idi. Eyni zamanda Prezidentin və digər dövlət rəsmilərinin son zamanlar vətəndaşlarla informasiya münasibətlərinin həm də bu platformadan qurması, Birinci-vitse prezident Mehriban Əliyevanın bütün sosial media platformalarından effektiv istifadə ilə bağlı çağırışı beynəlxalq ictimai rəyə ciddi təsir imkanı olan Twitterin ölkədə əlçatan olmasını zəruri edir.

"Twitter"in Azərbaycandilli auditoriyası ciddi bir təbəqədir, intellektualdır, əsasən ictimai fəallar, rəsmilər və informasiya ictimaiyyətinin nümayəndələridir, şayiə və panikaya uyan deyil. Əksinə, Twitter istifadəçilərimiz xarici dillərdə faydalı kontent yaratmaqla beynəlxalq ictimai rəyin formalaşmasında ciddi rol oynayır. Əvvəlki hərbi əməliyyatlar zamanı və Azərbaycanda keçirilən beynəlxalq tədbirlər zamanı da "Twitter" anti-Azərbaycan təbliğatının qarşısının alınmasında müstəsna rol oynamışdı. Bunları nəzərə alaraq, "Twitter" ə tətbiq edilən məhdudiyyətin aradan qaldırılması informasiya sahəsində milli maraqlarımızın qorunması baxımından faydalı olar.(4)

"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz deyir ki, Azərbaycan Prezidenti İlham Əliyevin xarici televiziya kanallarına müsahibələri, xalqa müraciəti və sosial şəbəkələr vasitəsilə verdiyi açıqlamalar informasiya müharibəsində müstəsna rol oynayır: "Beynəlxalq informasiya mühitində dövlət başçısının qlobal informasiya resurslarına verdiyi müsahibələr və açıqlamalar, xalqa müraciətləri mühim rol oynayır. Bütün bunlar qarayaxmaların qarşısını alır, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırır. Onun təhlilinə görə: ölkədə yeni sosial media resurslarına, "Telegram"-a, o cümlədən uzun illərdən bəri ölkədə populyarlaşa bilməyən "Twitter"-ə diqqət sürətlə artıb; Azərbaycandilli sosial media platformasının keyfiyyət və peşəkarlıq göstəriciləri, ictimai çəkisi xeyli artıb; koronavirus pandemiyası, xüsusən də son müharibədə əhalinin rəqəmsal bacarıqlarının sürətlə artmasına stimul verib; İstifadəçilər VPN texnologiyalardan, yeni sosial media resurslardan kütləvi olaraq daha aktiv istifadə etməyə başlayıblar; sadə istifadəçilərin də informasiya mədəniyyəti, informasiya ilə işləmək bacarıqları xeyli yüksəlib. Dezinfromasiyanın xüsusi çəkisi hədsiz dərəcədə azalıb. Rəsmi mənbələrə, rəsmi informasiyalara inam və istinad xeyli yüksəlib; İnternetin və sosial medianın məhdudlaşdırılması nəticəsində informasiya mənbəyi funksiyası TV-lərə keçib. Həmçinin, informasiyanın ötürülməsi funksiyası da müharibənin ilk günlərində əsasən TV-lərdə və internet mediada olsa da, VPN məsələsindən sonra sosial media yenidən aktivləşib.

İnternetin və sosial medianın məhdudlaşdırılması ilə ilk günlərdə beynəlxalq anti-Azərbaycan informasiya cəbhəsində, beynəlxlaq mediada üstünlük hiss olunsa da, son zamanlar həm diplomatik korpus və diaspora, xaricdə yaşayan həmvətənlərimiz tərəfindən, həm də yenə də VPN texnologiyadan istifadə edənlər, bu sahə üzrə bacarıqları olanların səyləri ilə vəziyyət xeyli yaxşılaşıb.

Müdafiə Nazirliyinin informasiya siyasəti peşəkarlıq və operativlik baxımından, yeni texnologiyaların, multimedia texnologiyaların tətbiqi baxımından müsbət istiqamətdə xeyli inkişaf edir.

Artıq 1 aydan çoxdur ki, ikinci Dağlıq Qarabağ müharibəsi davam edir. Əvvəlki döyüşlərdən fərqli olaraq bu dəfə ölkədə hərbi vəziyyət elan olundu. Eyni zamanda internetin verilməsində, eləcə də sosial mediaya daxil olmaqda məhdudiyyətlər tətbiq edildi. Hazırda bir çox yerlərdə internet məhdudiyyəti var. Xüsusi

proqramlar olmadan sosial mediaya daxil olmaq mümkün deyil. İstifadəçilər ödənişlərlə bağlı bəzi fikir mübadiləsi aparırlar. Vətəndaşlar hesab edir ki, internetdən istifadə mümkün olmadığı üçün ödənişlər dayandırılmalıdır. Bəziləri isə heç olmasa, ödənişlərin yarıya endirilməsini məqbul sayır.

Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz bildirib ki, internet provayderləri mövcud durumu nəzərə almalıdır. Ekspertin sözlərinə görə, ölkəmizdəki provayderlər hazırda magistral provayderlərdən internet alıb bizə satırlar. Magistral provayderlərdən alınan internet trafiki azdır. Bu baxımdan xərclər də kifayət qədər aşağıdır. Provayderlərin xərci az olduğu üçün müştərilərə güzəştlər edə bilərlər. Opitmal variqnt odur ki, provayderlər növbəti aylarda daha böyük trafik və sürətlər alıb, istifadəçilərə təqdim edə bilərlər. Beləliklə məsələ kompensasiya olsun. Düşünürəm ki, bu, doğru addım olardı.(4)

Müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya və yüksək texnologiya sahələrinin genişləndirilməsinə, elmi tədqiqatların aparılmasına və yeni texnologiyaların işlənilməsi üzrə zəruri infrastrukturu, maddi-texniki bazası və idarəetmə qurumları olan Yüksək Texnologiyalar Parkının fəaliyyətinin təşkili və idarə olunması məqsədilə dövlət başçısının 8 noyabr 2016-cı il tarixli Sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində AMEA Yüksək Texnologiyalar Parkı Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılır. Cəmiyyətin yenidən təşkili və ləğvi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

Hazırda YT Parkın Rusiya, Çin, Koreya, İran, İsrail, Çexiya və digər ölkələrin özəl şirkətləri və elmi-tədqiqat müəssisələri ilə əməkdaşlıq əlaqələri mövcuddur və bu istiqamətdə tədbirlər davam etdrilir. AMEA Yüksək Texnologiyalar Parkı bundan sonra da öz fəaliyyətini Azərbaycanda yüksək texnologiyalar və texnoparkların inkişafı istiqamətində daha da genişləndirəcək, yeni nailiyyətlərə imza atacaq. Parkın peşəkar mütəxəssisləri və texnoloqları, eləcə də buraya cəlb olunan rezidentlər yüksək keyfiyyətli, ixrac potensiallı məhsullarla Azərbaycanı ölkənin hüdudlarından kənarda da təmsil edəcək, bu müəssisəni xarici investorlar üçün güclü platformaya çevirəcək.(2)

## Ədəbiyyat

1. Əliquliyev R.M., Valehov C.F., Mahmudov R.Ş. İnternet-jurnalistikanın formalaşmasının bəzi aspektləri. Ekspress-informasiya. İnformasiya cəmiyyəti seriyası, Bakı, "İnformasiya Texnologiyaları" nəşriyyatı, 2008, 32 s
2. Usha Rani Vyasulu Reddi, Rüstəmov A.,Seyidzadə E., Sadıqlı A. Inkişaf üçün İKT-nin tətbiqi. Dərs vəsaiti. Bakı, 2015.
3. https://xeberler.az/new/details
4. https://az.trend.az/other/commentary/

**Rəyçi: b.m. Z.Azayeva**

Göndərilib: 16.11.2020 Qəbul edilib: 18.11.2020